DOI: https://doi.org/10.36719/2789-6919/35/14-17

**Südabə İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
Sudaba.isgandarova@adpu.edu.az

# ŞAGİRDLƏRDƏ REFLEKSİYANIN FORMALAŞDIRILMASI ÜÇÜN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏ İDDİA SƏVİYYƏSİNİN ƏHƏMİYYƏTİ

## Xülasə

Şagirdlərin təlim fəaliyyətində qiymətləndirilmə və refleksiya proseslərinin öyrənilməsi təlimin təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Refleksiya biliklərin mənimsənilməsi prosesinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir. Refleksiyanı həyata keçirmək üçün şagirdlərə, onları yeni biliyin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin addımlarını izləməyə kömək edə biləcək suallar verilir. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və komponentlərini, nailiyyət qazanmaq üçün amilləri dərk etmiş olur.

***Açar sözlər:*** *təlim, refleksiya, özünüqiymətləndirmə, iddia səviyyəsi, müvəffəqiyyət*

**Sudaba Isgandarova**
Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy
Sudaba.isgandarova@adpu.edu.az

# The importance of self-assessment and level of claims for the formation of reflection in students

## Abstract

The study of the processes of evaluation and reflection in the learning activities of students is of great importance in terms of improving learning. A significant improvement in academic performance is observed after the self-assessment process. If there is a significant positive correlation between student and teacher scores, both students and teachers report that it is helpful in developing self-management skills. Through the self-assessment process, students begin to internalize learning objectives and apply them in future endeavors. Equally important in learning should be given to self-assessment. Self-esteem also depends on the level of claims. The high or low level of the student's claims is reflected in his ideas about himself and his attitude towards other people.

***Key words:*** *learning, reflection, self-assessment, level of aspirations, success*

## Giriş

İnteraktiv təlimin mühüm xüsusiyyətlərindən biri şagirdlərin müstəqil təlim, yəni öyrənməyi öyrənmək, müstəqil özünüinkişaf, müstəqil düşünmə bacarıq və vərdişlərinə yiyələnməsinə imkan yaratmaqdır. Dərs başa çatdıqdan sonra qiymətləndirmə və ya refleksiyanı həyata keçirərkən müstəqil öyrənmə proseslərinin nəzərdən keçirilməsi və bunun nəticəsində öz öyrənmə fəaliyyətinin təkmilləşdirilməsi vacibdir. Qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır.

Özünüqiymətləndirmə prosesindən sonra akademik performansda əhəmiyyətli irəliləyiş müşahidə edilir. Şagird və müəllimin qiymətləndirmələri arasında əhəmiyyətli dərəcədə müsbət korrelyasiya olarsa, həm tələbələr, həm də müəllim heyəti bunun özünü idarəetmə bacarıqlarını inkişaf etdirmək üçün faydalı olduğunu qeyd edir.

Özünüqiymətləndirmə şagirdlərin fənlərə marağını və motivasiya səviyyəsini artırır. Bu da onların öz işlərinin təhlili üçün tənqidi bacarıqların inkişaf etdirilməsinə kömək edir və daha yaxşı öyrənməyə və təqdim etməyə imkan verir.

Öz işini tənqidi qiymətləndirmək, özünüqiymətləndirmək bacarığı, çox vaxt təhsilin məqsədi kimi iddia edilir (Evans AW.McKenna, Oliver, 2002: 511). Andrade və Duya görə, özünü qiymətləndirmə formativ qiymətləndirmə prosesidir. Şagirdlər öz işlərinin keyfiyyəti və öyrənmə fəaliyyəti üzərində düşünür və qiymətləndirir, açıq şəkildə ifadə edilmiş məqsədləri və ya meyarları refleksiya etmə dərəcəsini mühakimə edir, işlərində güclü və zəif tərəfləri müəyyən edir və müvafiq olaraq yenidən nəzərdən keçirirlər (Andrade, Du, 2007: 159). Şagirdlər həmçinin, özünü qiymətləndirmə prosesinin onların bilik və fənnə olan marağının artırılmasında faydalı olduğunu qəbul edirlər və bunun öz-özünə öyrənmə bacarıqlarını inkişaf etdirməyə həvəsləndirici olduğunu görürlər. Şagirdlərə öz performanslarını özünə qiymətləndirmə yolu ilə mühakimə etmək maraqlıdır. Özünüqiymətləndirmə öyrənmənin çox vacib komponenti hesab olunur, çünki onun öyrənmə tərəqqisinin özünü müəyyən etməsi şagirdi gələcək öyrənməyə həvəsləndirəcəkdir. Bundan əlavə, cavablarını qiymətləndirərək, onlar öz çatışmazlıqlarını tənqidi təhlil edə bilirlər. Herbert həmçinin, təklif edir ki, özünüqiymətləndirmə prosesi ilə tələbələr tədris məqsədlərini mənimsəməyə və onları gələcək səylərə tətbiq etməyə başlayırlar (Sadler, 2006: 31). Boud həmçinin, təklif etdi ki, özünüqiymətləndirmə həm öyrənmədə, həm də uğur qazanmaq və ömürboyu öyrənmə üçün vacib bir bacarıqdır. Həmçinin, müxtəlif tədqiqatçılar təklif edirlər ki, ünsiyyət bacarıqlarının inkişafına verilən əhəmiyyət kimi özünüqiymətləndirməyə də təlimdə eyni əhəmiyyət verilməlidir.

*Şagirdlər özlərini həddən artıq qiymətləndirməyə meyilli olsalar da, şagird və müəllimin qiymətləri arasında müsbət korrelyasiya* tələbələrin keyfiyyət anlayışına malik olduğunu göstərir. Sadler və Qud tədqiqatla müəllim və tələbə qiymətləri arasında da yüksək korrelyasiya olduğunu qeyd ediblər (Herbert, 1998: 583). Özünüqiymətləndirmə prosesi şagirdlərə həyat boyu öyrənmənin vacib komponenti olan öz işlərini mühakimə etmək üçün tənqidi bacarıqları inkişaf etdirməyə kömək edə bilər və bununla da mövzunu daha yaxşı başa düşə bilər. Bu, onların karyerası ərzində daha da vacib olur, çünki bu tələbələr, adətən, onların fəaliyyətinin tənqidi təhlili olmadığı zaman bəzi yüksək vəzifələrə yiyələnirlər.

Özünüqiymətləndirmə tələbələrin fənn üzrə marağını və motivasiya səviyyəsini artıra bilər ki, bu da daha yaxşı akademik performansa və təkmil öyrənməyə səbəb olur. Həmçinin, öz işlərini qiymətləndirmək və təhlil etmək üçün şagirdlər arasında tənqidi bacarıqların inkişafına kömək edə bilər ki, bu da özünü idarə edən ömürboyu öyrənmənin vacib komponentidir.

Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin qarşısında şagirdlərin özlərinə qiymət verməsi təcrübəsindən, habelə qarşılıqlı qiymətləndirmədən istifadə edilir. Bundan əlavə, qiymətləndirmə meyarlar üzrə aparılmalıdır, yəni konkret meyarlara əsaslanmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış edir və ya qiymət verməklə onu əsaslandırır (Bizyayeva, 2004: 216).

Birinci və ən aktual olan şagirdin öz qərarının avtomatik qiymətləndirilməsini təmin etməkdir. Mövcud tələbə modellərindən istifadə edərək, şagirdi bilik səviyyələrinə uyğun olaraq uyğunlaşdıra və onlar üçün ən uyğun öyrənmə yolunu seçmək olar. Şagirdin refleksiyası daha çox özünü çətin hiss etdiyi zaman baş verdiyindən, tapşırıqların düzgün seçilməsi şagirdin refleksiyasını, xüsusən də fəaliyyətin refleksiyasını inkişaf etdirir (Judy Kay, Lichao Li and Alan Fekete, 2006).

Bütün hallarda emosional qiymətlər əsas yer tutur: əxlaqi, estetik, intellektual qiymət özünüqiymətləndirmə səviyyəsində emosional çalar kəsb edir. Bu onunla bağlıdır ki, özünüqiymətləndirmə səviyyəsində qiymət verən və qiymətləndirilən eyni bir adamın şəxsində birləşir: mən – mənə qiymət verir (Tsilitskiy, 2015: 913-917).

Şəxsiyyət səviyyəsində özünüqiymətləndirmə sistemini təhlil edərkən aşağıdakı cəhətləri xüsusilə nəzərə almaq lazımdır:

1. Özünüqiymətləndirmə prosesində "real mən" obrazı ilə "ideal mən" obrazının müqayisə edilməsi mühüm rol oynayır. Onlar bir-birinə uyğun gəlməlidir.
2. İnsan özünün hər hansı bir keyfiyyətini qiymətləndirmək üçün kiçik yaşlarından təsəvvürlərində yaxşı və pisin etalonunu yaradır. Şagird özünə qiymət verərkən bundan istifadə etməyə

başlayır. Yaş artdıqca, insanın sərvət meyilləri formalaşır, ideallların xarakteri dəyişir və buna müvafiq olaraq onun etalonlar sistemi mürəkkəbləşir. Biz hər hansı bir şagirdin özünü necə qiymətləndirdiyini aydınlaşdırmaq üçün onun özünü hansı etalonla əlaqələndirdiyini, özünə hansı etalona əsasən qiymət verdiyini bilməliyik. Bu yolla biz həm də onun "ideal mən"inin məzmununu təhlil etmiş oluruq. Çünki müvafiq etalonlar "ideal mən"də xüsusi yer tutur.

3. İnsanın özünəməxsus qiymətlər sistemi vardır. Bir tərəfdən, insan özü-özünü qiymətləndirir, digər tərəfdən, onun davranış və rəftarı mənsub olduğu qrup tərəfindən qiymətləndirilir. Bundan başqa, uşaq bu və ya digər tərzdə hərəkət edərkən ətrafdakıların onu necə qiymətləndirəcəklərini nəzərə alır. Buna gözlənilən qiymətlər deyilir.

Özünüqiymətləndirmənin səviyyəsi iki mühüm amilin - müvəffəqiyyət və iddianın qarşılıqlı əlaqəsi ilə şərtlənir.

Fəaliyyətin nəticəsi, yəni uğurlu və uğursuz olması da bu iki amil - şagirdin əldə etmək istədiyi nəticə və faktik olaraq əldə etdiyi nəticə arsındakı nisbətlə müəyyən olunur. Şagirdlərin öz uğur və uğursuzluqlarına münasibətlərini xarakterizə etmək üçün iddia səviyyəsi istifadə olunur.

İddia səviyyəsi ilə yanaşı gözləmə səviyyəsi də fərqləndirilir. İddia səviyyəsi gözləmə səviyyəsi ilə qarşılıqlı surətdə əlaqədardır. Lakin onları eyniləşdirmək olmaz. Müasir təsəvvürlərə görə, gözləmə səviyyəsi insanin əldə etmək istədiyi nəticə (məqsəd) ilə müəyyən olunur. Halbuki iddia səviyyəsi insanın əldə etdiyi nəticəyə münasibətində ifadə olunur: əldə etdiyi nəticə ilə qane olurmu, nəticə onu təmin edirmi.

Şagirdin əldə etdikləri nəticə öz-özlüyündə hələ müvəffəqiyyət və ya uğursuzluq kimi nəzərdən keçirilə bilməz, hər hansı bir adamın özü haqqındakı təsəvvürlərindən, özünə verdiyi qiymətlərdən və s. asılı olaraq bu və ya digər nəticə müvəffəqiyyət və ya uğursuzlıuq kimi qiymətləndirilir.

Şagirdlər bu və ya digər nəticəni müvəffəqiyyət və ya uğursuzluq kimi qiymətləndirəndə tapşırığın asan və ya çətin olmasını, onun hansı şəraitdə icra olunduğunu da nəzərə alırlar.

Şagirdin iddia səviyyəsinin yuxarı və ya aşağı olması, bir tərəfdən, onun özü haqqındakı təsəvvürlərində, digər tərəfdən isə başqa adamlara münasibətində əks olunur.

Kiçik yaslarından başlayaraq uşaq və yeniyetmələrdə öz uğurlarına düzgün münasibət yaratmaq iddia səviyyəsini tənzim etməyin başlıca yoludur.

Şagird özünün istər təlim, istərsə də əmək fəaliyyətində heç bir çətinlikdən qorxmamalı, onları mətanətlə aradan qaldırmağı və basladığı işi müvəffəqiyyətlə başa çatdırmağı öyrənməlidir. Tərbiyə işi də şagirdi məhz buna yönəltməlidir. Şagirdin öz müvəffəqiyyətlərinə düzgün münasibət bəsləməsi psixoloji baxımdan xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu iddia səviyyəsinin tənzim edilməsi, optimallaşdırılması yolu ilə əldə edilir. Hətta şagird özü də müxtəlif həyati situasiyalarda iddia səviyyəsini spesifik yollarla optimallaşdırır və bu məqsədlə psixoloji müdafiənin müxtəlif formalarından istifadə edir (Borodina, Tsilitskiy, 2017: 117).

## Nəticə

Şagirdin refleksiyasında özünüqiymətləndirmə böyük rol oynayır. Onun özü haqqındakı təsəvvürlərinin formalaşması bilavasitə özünüqiymətləndirmə ilə bağlıdır. Şagird özünün qabiliyyətlərini, mənəvi keyfiyyətlərini, əməllərini, öz imkanlarını və perspektivlərini, özünün qarşılıqlı münasibətlərini, qrup və kollektivdə, başqa adamlar içərisində tutduğu yeri qiymətləndirir. Qiymətləndirmə özünümüşahidə və özünütəhlil yolu ilə fomalaşır. Bu prosesə iddia səviyyəsi və müvəffəqiyyət müsbət təsir edir.

## Ədəbiyyat

1. Evans, AW, McKenna, C., Oliver M. (2002). Self-assessment in medical practice. *J R Soc Med.*; 95:511-3.
2. Andrade, H., Du, Y. (2007). Student responses to criteria-referenced self- assessment. *Assess Eval High Educ.*; 32:159–81.
3. Sadler PM, Good E. The impact of self and peer grading on student learning. *Educ Assess.* 2006;11:1–31.
4. Herbert, E. (1998). Lessons learned about student portfolios. *Phi Delta Kappan.*; 79:583–5.

5. Bizyayeva, A.A. (2004). Psikhologiya dumayushchego uchitelya: Pedagogicheskaya refleksiya. Pskov: PGPI im. S.M. Kirova, 216 s.
6. Judy, K., Lichao, L. and Alan, F. (2006). Learner Reflection in Student Self-assessment. School of Information Technologies. The University of Sydney, NSW, Australia. {judy, lli1, fekete}@cs.usyd.edu.au
7. Tsilitskiy, V.S. (2015). Zakonomernosti formirovaniya refleksivnykh umeniy i navykov na raznykh etapakh vozrastnogo razvitiya cheloveka. Molodoy uchenyy. № 22, s. 913-917.
8. Borodina, V.A., Tsilitskiy V.S. (2017). T'yutorskoye soprovozhdeniye formirovaniya refleksivnykh mekhanizmov sotsializatsii detey s ogranichennymi vozmozhnostyami zdorov'ya (teoreticheskiye osnovy)]: uchebno-metodicheskoye posobiye, Chelyabinsk, 117 s.

Göndərildi: 03.06.2024 Qəbul edildi: 18.07.2024